**ASAN Radionun efirində 1 Sual – 1 Cavab rubrikasında yayımlanacaq sual-cavab**

**Sual -1:** Təhsil Tələbə Krediti nədir?

**Cavab:** **T**əhsil tələbə krediti Universitetlərin bakalavriat və magistratura (rezidentura), səviyyələrində, orta ixtisas təhsili pilləsində və peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyələrində əyani və ödənişli əsaslarla təhsil alan tələbələrə müəyyən müddətə və faizlər ödənilmək şərtilə borc verilən pul vəsaitidir;

**Sual-2:** Hansı tələbələr təhsil tələbə kreditindən yararlana bilərlər?

**Cavab-:** Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət və özəl təhsil müəssələrində əyani və ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının vətəndaşı olan tələbələr TTK-dən yararlana bilər.

**Sual-3**:Təhsil tələbə kreditinə müraciət etmək üçün ümumi tələblər hansılardır?

**Cavab:-** Təhsil tələbə kreditinə müraciət etmək üçün ümumi tələblər bunlardır: Tələbə tədrisə tam cəlb olunaraq (fulltime) təhsil müəssisələrində əyani təhsil almalı, hər tədris semestri üçün müraciət etməli, son semestri üzrə akademik borcu olmamalıdır**.**

**Sual-4:** Təhsil Tələbə Kreditinin hansı növləri vardır və fazi dərəcələri nə qədərdir?

**Cavab:** Təhsil Tələbə Kreditinin Sosial və Standard olmaqla 2 növü vardır. Sosial TTK illik 2%, Standart TTK illik 6% hesablanmaqla verilir. TTK-nin illik faiz dərəcələri və siğorta haqqı da hesablanmaqla aylıq nə qədər ödəniş məbləğləri ilə tanış olmaq üçün e-ttkf.edu.az səhifəsindəki kredit kalkulyatoru bölməsinə daxil olmaqla hesablaya bilərsiniz.

**Sual -5:** Təhsil Tələbə Krediti hansı tələbəyə necə və hansı qaydada ödənilir?

**Cavab:** Təhsil Tələbə Krediti almaq tələbə ilə müvəkkil bank arasında bağlanmış müqavilə əsasında bank tərəfindən təhsil müəssisəsinin bank hesabına köçürülür. Tələbənin kredit almaq hüququ yarandığı halda kreditin məbləği təhsilin normativ müddətində hər tədris semestri (yarımil) üçün ödənilir.

**Sual -6 :** Hansı tələbələr sosial TTK-dən almaq hüququna malikdirlər?

**Cavab:**

1. Əvvəlki semestr üzrə akademik borcu olmayanlar;
**2.** Ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
**3.** 3-cü dərəcə əlilliyi olanlar;
**4.** Hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs); aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olanlar:

-1-ci və ya 2-ci dərəcə əlilliyi olanlar;
-işsiz kimi ƏƏSMN-nin Məşğulluq İdarələrində qeydiyyatda olanlar;
-yaşa görə əmək pensiyası alanlar;
-yaşa görə sosial müavinət alanlar.

**Sual-7:** Hansı tələbələr standart TTK almaq hüququna malikdirlər?

**Cavab:** Sosial TTK almaq üçün müvafiq statuslara malik olmadığı təqdirdə, aşağıdakı şərtləri təmin edən tələbələr standart TTK hüququna malikdirlər:

1. Əvvəlki semestr üzrə akademik borcu olmayanlar;
2. Birinci tədris ilinin ilk semestri üçün qəbul imtahanında toplanan balın təsdiq edilmiş minimum həddindən yuxarı olanlar, digər semestrlər üçün isə ÜOMG 71 bal və yuxarı olanlar;
3. İllik təhsil haqqı xərcinin ən azı 20 faizini ödəyən.

**Sual 8:** TTK-nə müraciət etmək üçün Girov və ya zaminlik tələb olunurmu, əvvəllər gecikdirilmiş kredit ödənişlərinin, eləcə də cari kredit borclarının olması TTK-nə alınmasında təsiri varmı?

**Cavab:** Tələbənin əvvəllər gecikdirilmiş kredit ödənişlərinin, eləcə də cari kredit borclarının olması TTK-nə müraciət etməsi üçün heç bir təsiri yoxdur. TTK almaq üçün girov və ya zaminlik tələb olunmur.

**Sual 9:** Tələbənin aldığı TTK-nə görə təhsil müddətində faizlər hesablanırmı?

**Cavab: Xeyr, tələbənin** aldığı TTK-nə görə təhsil müddətində faizlər hesablanmır. Həmçinin tələbəyə verilən güzəşt dövrü və möhlət dövrü müddətlərində də fazilər hesablanmır.

**Sual 10:** Tələbə TTK-ni nə vaxtdan etibarən qaytarmalıdır?

**Cavab:** Tələbə təhsil müddətini başa vurduqdan sonra ona əmək fəaliyyəti və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün 2 il vaxt verilir. Bu dövr güzəşt dövrü adlanır. Güzəşt dövrü başa çatdıqdan sonra şəxs (borcalan tələbə ) 10 il müddətində TTK üzrə öhdəliyi icra etməlidir.

**Sual 11:** Möhlət dövrü nədir hansı hallarda və hansı müddətə verilir, kreditin qaytarılmasına təsiri nədir?

**Cavab:** TTK-nin qaytarılması dövründə aşağıdakı hallar baş verərsə, TTK-nin qaytarılmasına möhlət dövrü verilir və kredit müqaviləsinin müddəti həmin müddət qədər uzadılır:

- yuxarı təhsil səviyyəsində əyani təhsil;
- həqiqi hərbi xidmət dövrü;
- məhkumluq (4 ildən çox olmayaraq azadlıqdan məhrumetmə və ya azadlığın məhdudlaşdırılması);
- işləyən borcalana münasibətdə hamiləliyə və doğuma görə və uşağının üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyətdə olduğu müddət;
- sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq müddəti.

**Sual 12:** Sosial Təhsil tələbə krediti almış tələbələrə faizlərin hesablanmasında və kreditin qaytarılmasında nə kimi güzəştlər nəzərdə tutulub?

**Cavab:** Sosial TTK almış tələbənin ÜOMG-si 71 bal və yuxarı olarsa həmin semestr üçün götürdüyü kreditə görə faiz hesablanmır;

- Sosial TTK almış tələbənin Təhsilin normativ müddətində bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olarsa onlar aldığı krediti 50 %-dən azad olunurlar.

**Sual 13:** Standart Təhsil tələbə krediti almış tələbələrə faizlərin hesablanmasında və kreditin qaytarılmasında nə kimi güzəştlər nəzərdə tutulub?

**Cavab:** Standart TTK almış tələbənin ÜOMG-si 91 bal və yuxarı olarsa həmin semestr üçün götürdüyü kreditə görə faiz hesablanmır;

- Standart TTK almış tələbənin Təhsilin normativ müddətində bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olarsa onlar aldığı krediti 25 %-dən azad olunurlar.

**Sual 14:** TTK -nin verilməsi üçün müraciət və sənədləşmə işləri hansı qaydada olur?

**Cavab:** Tələbə TTK almaq üçün ilk növbədə notariat ofislərinə yaxınlaşıb bir sıra razılıqlarını ərizə ilə təsdiq etməlidir (yaşı 18-dən kiçik olduqda valideynləri və ya himayəçisi ilə birlikdə) . Notarial razılığı rəsmiləşdirilmiş tələbə e-ttkf.edu.az portalına ilk dəfə notariatlıqdan alınmış ərizə nömrəsi və FİN kodu ilə daxil olur. Bu zaman tələbənin şəxsi kabineti formalaşır və müvafiq məlumatları daxil edərək müraciətini təsdiq edir. Bundan sonra tələbə şəxsi kabinetinə asan login vasitəsilə də daxil ola bilər və şəxsi kabineti vasitəsi ilə **tələbə** müraciətin statusu və TTK-nın verilməsi ilə bağlı prosesləri izləyə bilər.

**Sual 15:** Tələbənin TTK ilə bağlı hansısa sualı yarandıqda hara müraciət etməlidir?

**Cavab:** Bunun üçün tələbələr e-ttkf.edu.az portalında dəstək bölməsinə yaza, 146-6 çağrı mərkəzinə, yaxud 077 317-88-52 mobil nömrəsinə zəng edə, 077 317-88-53 mobil nömrəsinin whatsapp hesabına, yaxud da TTKF-nun facebook, instagram, telegram sosial şəbəkə hesablarına yazıb əlaqə saxlaya bilərlər.

**Sual 16:** Bank tərəfindən TTK rəsmiləşdirilməsi hansı qaydada həyata keçirilir?

**Cavab:** TTK rəsmiləşdirilməsi elektron qaydada həyata keçirilir. Kredit alan tələbənin müraciət zamanı qeyd etdiyi mobil nömrəsinə bank tərəfindən SMS vasitəsilə link və birdəfəlik şifrə (OTP) göndərilir. Tələbə linkə keçid etdikdən sonra birdəfəlik şifrəni (OTP) daxil edir, bu zaman müvəkkil bankın üz tanıma sistemi işə düşür və müştəri eyniləşdirilir. Tələbə sistemdə müvafiq məlumatları təsdiq etdikdən sonra kredit müqaviləsi və kreditin sığorta müqaviləsi rəsmiləşdirilir.

**Sual 17:** e-ttkf.edu.az portalının işləmə ardıcıllığı necə olur?

**Cavab:** ***1-ci addım.*** Tələbə bir sıra razılıqlarla bağlı notarial ofisdən razılıq ərizəsi alır və portal daxil olaraq qeydiyyatdan keçir.

***2-ci addım.*** Təhsil müəssisəsi tələbənin müraciətinin doğruluğunu təsdiqləyir, redaktə və ya imtina edir.

***3-cü addım.*** Sistem tələbinin valideynlərinin FİN kodu əsasında digər bazalarda sosial statusunu əlavə edir.

***4-cü addım.*** Müraciət banka rəsmiləşdirilmək üçün göndərilir və online müqavilə rəsmiləşdirildikdən sonra proses bitir.